من فقه زيارة القبور

# Qəbirləri ziyarət etmək


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Peyğəmbər ﷺ ümmətinə qəbirləri ziyarət etməyi tövsiyyə etdi.

Çünki bunda axirəti xatırlamaq, dünyaya bağlanmamaq və ibrət alanlar üçün ibrət vardır.

Qəbirləri ziyarət etmək 3 növdür:

**1.** Şərii ziyarət;

Bu da, ölülərə dua etmək, onlara rəhmət oxumaq və axirəti xatırlamaq üçün olan ziyarətdir. Bu icazəlidir.

**2.** Bidət olan ziyarət;

Bu da, qəbirlərin yanında quran oxumaq, namaz qılmaq, qurban kəsmək və s. kimi ibadət etmək niyyəti ilə olunan ziyarətdir. Bu bidətdir və şirkə aparan vəsilədir.

**3.** Şirk olan ziyarət;

Bu da, qəbir sahiblərinə dua etmək və onlardan yardım diləmək, və ya onlara qurban kəsmək və ya onlar üçün nəzir demək və ya Allahdan ﷻ başqasına icazə olmayan başqa ibadətləri etmək üçün olan ziyarətdir. Bu izzət və cəlal sahibi Allaha ﷻ olan şirkdir.

Qəbirləri ziyatər edənlərə qəbirstanlığa salam vermək, ziyarət etdiyin qəbir sahibinə və müsəlmanlardan olan bütün qəbir əhlinə dua etmək icazəlidir.

Bureydə (Allah ondan razı olsun) buyurur: Peyğəmbər ﷺ səhabələrinə qəbirstanlığa getdikləri zaman bu duanı onlara öyrədərdi:

السَّلاَمُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وَإِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ
أَسْأَلُ اللهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ لاَحِقُون

Əs-sələmu aleykum əhləd-diyəri minəl-mu'mininə vəl-muslimin və innə inşə Allahu bikum ləhiqunə. Əs'əlullahə lənə və ləkumul-afiyətə.

Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. Allahdan özümüzə və sizə salamatlıq diləyirəm![1]

---

1 İbn Macənin «Sünən» əsərində (1/494)